**AZƏRBAYCAN MİLLİ ELMLBR AKADEMİYASININ RƏYƏSƏT HEYƏTİ**

**Q Ə R A R**

**№7/28**

BakI şəhəri 20 aprel 2016-cı il

Akademik Tofq Hacıyevin
80 illik yubileyi haqqında

2016-cı ilin may ayında AMEA-nın həqiqi üzvü, filologiya üzrə elmlər doktoru, professor, Əməkdat elm xadınıi Tofq İsmayıl oğlu Hacıyevin anadan olmasının 80 ili tamam olur.

Tofq Hacıyev 1936-cı il mayın 1-də Cəbrayıl rayonunun Soltandı kəndində anadan olmuşdur. Soltanlı kənd orta məktəbini bitirdikdən sonra 1953-cü ildə Azərbaycan Dövlət Universitetinin (indikı Bakı Dövlət Univüersiteti) Filologiya faküjtəsinə daxil 1958-ci ildə ali təhsilini fərqlənmə dıplomu ilə bitirərək Dilçilik ixtısası üzrə aspiranturaya qəbul olunmuşdur. 1962-ci “Azərbaycan dilinin Cəbrayıl şivələri” mövzusunda namizədlik, 1969-cu ildə “XX əsrın əvvələrində Azerbaycan əabi dili” mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1971-ci ildə professor adına layiq görülmüş, 2001-ci ildə AMEA-nın müxbir üzvü,, 2014-cü ildə üzvü seçilnüşdir.

Tofiq Hacıyevin “Sabir: qaynaqlar və sələflər”, “Şeirimiz, nəsrimiz, ədəbi dilimiz”, “Dədə Oorqud: dilimiz, düşüncəmiz" kitabları elmi ictimaiyyətin rağbətlə qarşıladığı əsərlərdir.

Akademik Tofiq Hacıyev “Azərbaycan ədəbi dili tarixi”, “Azərbaycan dili”, “XX əsrin əvvəllərində Azerbaycan ədəbi dili tarixi”, “Azərbaycan dili tarixi” kimi monoqrafiya və dərs vəsaitlərinin müəllifidir.

Alimin klassiklərimizin dili üslubu ilə bağlı onlarca məqaləsi, “Satita dili”, “Yazıçı dili və ideya-bədii təhlil”, “Molla Nəsrəddin”in dil və üslubu”, “Füzüli: dil sənətkarlığı” kitabları nəşr olunmuşdur. Orta nıəktəblərl üçün “Türk dili” (IX siniflər üçün), “Türk dili” (IX-XI siniflər üçün) dərslikləri nəşr edilmişdir. Akademik Tofıq Hacıyev 20 Kıtalıın, 400-dən çox elmi məqalənin müəllifi olmuşdur.

Tofiq Hacıyev kadr hazırlığı sahəsində də xüsusi fəaliyyət göstərmiş, dil tarixi, dialektologıya üzrə respublikamız və başqa türk xalqları üçün xeyli sayda elmi kadr yetlşdimüşdir. O, Kişinyov, Almatı, Düşənbə, Bişkek, Nukus, Nalçik və başqa şəhərlərdə elmi
konfrans və simpoziumlarda dil tarixi və dialektologiyanın aktual mövzularında məruzələr etmişdir. Onun elmi yaradıcılığında "Kitabi-Dədə Qorqud"la bağlı tədqiqatlar mühüm yer tutur.

Görkəmli alim 1995-ci ildə Türk Cümhuriyyəti Atatürk Dil, Tarix və Kültür Qurumunun fəxri üzvü seçilmiş, elmi və ictimai fəaliyyətinə görə 1998-ci ildə Türkiyə Cümhuriyyətinin “Ləyaqət nişanı” ilə təltif edilmişdir. O, Türkiyə Atatürk Kültür Qurumunun hazırladığı 30 cildlik “Türk dünyası ədəbiyyatı tarixi”nin müəlliflərindən biri olmuşdur. Türkiyənin Sənətçılər və Yazarlar

Vaqfının 2002-ci il üzrə “Türk dünyasına xidmət” medalı ilə təltif edilmiş, həmin il Atatürk Dil Qurumunun Ustün Hizmet Baratına layiq görülmüşdür.

Tofiq Hacıyev uzun illər Bakı Dövlət Universitetinin Türkologiya kafedrasına rəhbərlik etmiş, 2013-2015-ci illərdə AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru vəzifəsində çalışmışdır.

Görkəmli alimin fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Səmərəli elmi fəaliyyətinə görə 1999-cu ildə Azərbaycan Respublikasının əməkdar elm xadimi fəxri adını almış, "Şöhrət” ordeni ilə təltif edilmişdir.

AMEA-nın həqiqi üzvü, filologiya üzrə elmlər doktoru, professor Tofiq Hacıyevin dilçilik elminin inkişafındaki xidmətlərini nəzərə alaraq və anadan olmasının 80 illik yubileyi ilə əlaqədar Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti QƏRARA ALIR:

1. AMEA-nın Nəsimi adına Dilçilik İnstitutuna (AMEA-nın müxbir üzvü Möhsün Nağısoylu) tapşırılsın:

1 .1 . akademik Tofiq Hacıyevin anadan olmasının 80 illik yubileyi münasibətilə Elmi sessiya keçirilsin;

1 2. Görkəmli alimin hayat və fəaliyyətini əks etdirən məqalələr respublika KİV-lərində və AMEA-nın elmi nəşrlərində çap olunsun.

2. AMEA-nın "Elm” nəşriyyatına (Hafiz Abıyev) tapşırılsın:

2.1. akademik Tofiq Hacıyevin "SeçiImiş əsərləri” yeddi cilddə nəşr edilsin;

2.2. akademik Tofiq Hacıyevə həsr olunmuş məqalələr və xatirələr toplusu hazırlanaraq nəşr edilsin;

2.3. akademik Tofiq Hacıyevin əsərlərinin biblioqrafik göstəricisi nəşr edilsin.

3. Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İsa Habibbəyliyə həvalə edilsin.[1]

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ PROTOKOL ŞÖBƏSİ MƏRKƏZİ APARAT

[1] https://science.gov.az/uploads/pdf/p1ahe4r04014t8sumue0u0hdua4.pdf

**Bakı Dövlət Universitetinin əməkdaşlarının "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanda təhsilin və elmin inkişafındakı xidmətlərinə görə Bakı Dövlət Universitetinin aşağıdakı əməkdaşları **"Şöhrət"** ordeni ilə təltif edilsinlər:

**Babazadə** Vasif Məmmədağa oğlu
**Əhmədli** Cəmil Teymur oğlu
**Əliyev** İsmayıl Əhmədəli oğlu
**Əliyeva** Rəfiqə Əlirza qızı
**Göyçaylı** Şövqi Yusifziya oğlu
**Hacıyev** Aqil Cəfər oğlu
**Hacıyev Tofiq İsmayıl oğlu**
**Qasımov** Nemət Abbasəli oğlu
**Məhərrəmov** Abel Məmmədəli oğlu
**Namazov** Qara Mustafa oğlu
**Nəcəfov** İsmət Məhəmməd oğlu
**Rüstəmov** İzzət Əşrəf oğlu
**Vəliyev** Tofiq Talış oğlu
**Yaqubov** Məhəmməd Haqverdi oğlu

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 oktyabr 2009-cu il.
№ 540

## T.İ. Hacıyevin Azərbaycan Respublikasının maarif naziri təyin edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Milli Məclisinin razılığına əsasən Tofiq İsmayıl oğlu **Hacıyev** Azərbaycan Respublikasının maarif naziri təyin edilsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**Əbülfəz ELÇİBƏY**

Bakı şəhəri, 12 may 1993-cü il.
№ 577.